**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) təşəbbüsü, Azərbaycan dövlətinin dəstəyi və BMT-nin İnkişaf Proqramının Azərbaycandakı Nümayəndəliyi ilə əməkdaşlıq əsasında “İqlim Dəyişikliyi və İnsan Hüquqları: Ombudsmanların və Milli İnsan Hüquqları Təsisatlarının Rolu” mövzusunda keçirilən Ombudsmanların Beynəlxalq Bakı Forumu iştirakçılarının**

# B Ə Y A N N A M Ə S İ

***Bakı şəhəri, 02 oktyabr 2024-cü il***

*Biz, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) təşəbbüsü,* Azərbaycan dövlətinin dəstəyi və Birləşmiş Millətlər Təşkilatının (BMT) İnkişaf Proqramının Azərbaycandakı Nümayəndəliyi ilə əməkdaşlıq əsasında “İqlim Dəyişikliyi və İnsan Hüquqları: Ombudsmanların və Milli İnsan Hüquqları Təsisatlarının Rolu” *mövzusunda 2024-cü il 02* oktyabr tarixində k*eçirilən Ombudsmanların Beynəlxalq Bakı Forumu iştirakçıları* olaraq,

BMT-nin Nizamnaməsi, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Vyana Bəyannaməsi və Fəaliyyət Proqramı, İnkişaf Hüququna dair Bəyannamə, İnsan Ətraf Mühit Konfransı ilə bağlı Stokholm Bəyannaməsi, Ətraf mühit və inkişaf üzrə Rio-de-Janeyra Bəyannaməsi, digər müvafiq beynəlxalq və regional insan hüquqları sənədlərində təsbit olunmuş insan hüquq və azadlıqlarının daha səmərəli təmini və müdafiəsi üçün əməkdaşlıq etmək, habelə 2021-ci[1] ildə BMT-nin İnsan Hüquqları Şurası və 2022-ci[2] ildə BMT Baş Assambleyası tərəfindən təmiz, sağlam və davamlı ətraf mühitin insan hüququ (bundan sonra “sağlam ətraf mühit hüququ”) kimi tanıdığına uyğun olaraq, iqlim dəyişikliyi ilə mübarizədə səmərəli tədbirlər görmək istəklərini ***diqqətə çatdıraraq***,

Müasir dövrdə ən aktual problemlərdən biri olan qlobal iqlim dəyişikliyinin ölkələrin dayanıqlı inkişafına, əhalinin sosial rifahına əhəmiyyətli dərəcədə mənfi təsir göstərməklə yanaşı, insan hüquqlarının müdafiəsi və təmini baxımından da bir sıra ciddi çətinliklərə səbəb olmasından ***narahatlıq ifadə edərək,***

*BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərindən irəli gələn öhdəliklərə uyğun olaraq iqlim dəyişikliyi və onun mənfi təsirləri ilə mübarizəyə xüsusi önəm verən ölkələr sırasında Azərbaycanın* b*eynəlxalq ictimaiyyətin fəal üzvü kimi ən öncül yerlərdən birini tutduğunu* ***təsdiq edərək,***

---

[1] BMT-nin İnsan Hüquqları Şurası. Qətnamə A/HRC/RES/48/13, “İnsanın təmiz, sağlam və dayanıqlı ətraf mühitdə yaşamaq hüququ”, 18 oktyabr 2021-ci il

[2] BMT-nin Baş Assambleyası. Qətnamə A/RES/76/300, “İnsanın təmiz, sağlam və dayanıqlı ətraf mühitdə yaşamaq hüququ”, 28 iyul 2022-ci il

İştirakçıların sayına və səviyyəsinə, müzakirəyə çıxarılan məsələlərin aktuallığına görə ən mötəbər beynəlxalq tədbirlərdən biri hesab edilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) 2024-cü ildə Azərbaycanda keçirilməsi barədə dünya ölkələrinin yekdil qərar qəbul etməsini ***alqışlayaraq,***

Dünyada baş verən silahlı münaqişələr zamanı beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərinə, həmçinin beynəlxalq humanitar hüququn tələblərinə zidd olaraq törədilən ekosid cinayətləri nəticəsində canlı aləmin böyük təhlükəyə məruz qalmasına gətirib çıxaran ətraf mühitin radioaktiv, zəhərli, yoluxdurucu, partladıcı və digər zərərli maddələr, habelə minalarla çirkləndirilməsi səbəbindən ekosistemə ciddi zərər vurulması faktlarına qarşı mübarizə sahəsində birgə əməkdaşlığın gücləndirilməsinin vacibliyini ***bildirərək,***

İqlim dəyişikliyi kontekstində hər kəsin, o cümlədən həssas əhali qruplarının hüquqlarının təşviqi, müdafiəsi və təmini vəziyyətinin monitorinqi ilə bağlı qabaqcıl beynəlxalq təcrübənin öyrənilərək milli səviyyədə tətbiqində Ombudsmanların və milli insan hüquqları təsisatlarının (MİHT) rolunu ***qeyd edərək,***

İnsanın təmiz, sağlam və dayanıqlı ətraf mühitdə yaşamaq hüququnun təşviqi və müdafiəsi baxımından çox aktual bir mövzuya həsr edilməklə yüksək əhəmiyyət kəsb edən *Beynəlxalq Bakı Forumunda* bir sıra beynəlxalq təşkilatların rəhbərlərinin, xarici ölkələrin ombudsmanlarının, MİHT-lərin, dövlət qurumlarının, vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin, iqlim dəyişikliyi və insan hüquqları sahəsində ekspertlərin iştirak etdiyini ***nəzərə alaraq,***

İqlim dəyişikliyinin yaratdığı problemləri və onların həlli yollarını insan hüquqları perspektivindən müzakirə etmək, bu sahədə mövcud müsbət təcrübələri paylaşmaq məqsədinə xidmət edən çox aktual bir mövzuya həsr edilmiş Beynəlxalq Bakı Forumunun Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində yüksək səviyyədə təşkil edildiyini ***alqışlayaraq,***

Təmiz, sağlam və dayanıqlı ətraf mühitin insan hüquqlarının təmini baxımından əhəmiyyətini ***dərk edərək,***

**aşağıdakılar barədə razılığa gəldiyimizi bəyan edirik:**

- Sağlam ətraf mühitdə yaşamaq hüququnun təşviqi, müdafiəsi və təmini vəziyyətinin monitorinqi sahəsində beynəlxalq müsbət təcrübəni öyrənmək və tətbiqi ilə bağlı tədbirlər həyata keçirmək;
- İştirakçı dövlətlərin tərəfdar çıxdıqları beynəlxalq müqavilələrə və qabaqcıl dünya təcrübəsinə uyğun olaraq iqlim dəyişikliyinin insan hüquqlarına mənfi təsirlərinin aradan qaldırılması məqsədilə təkliflər hazırlamaq;
- İqlim dəyişikliyi və insan hüquqları üzrə yeni effektiv milli qanunvericilik aktlarının qəbul edilməsi, bu sahədə qüvvədə olan qanunvericiliyin qabaqcıl ölkələrin təcrübəsinə uyğun şəkildə təkmilləşdirilməsi ilə bağlı ombudsmanların və MİHT-lərin parlamentlə əməkdaşlığını inkişaf etdirmək;

- Bəşəriyyətin üzləşdiyi qlobal çağırışlara uyğun olaraq maraqlı tərəflərin bilik və bacarıqlarının inkişaf etdirlməsi, qarşılıqlı dialoqa, səmərəli əməkdaşlığa əsaslanan birgə müzakirələrin, informasiya və təcrübə mübadilələrinin aparılması məqsədilə Ombudsmanların, MİHT-lərin, beynəlxalq təşkilatların, aidiyyəti dövlət qurumlarının, xarici ekspertlərin, vətəndaş cəmiyyəti institutlarının, habelə digər tərəfdaşların iştirakı ilə iqlim dəyişikliyi və insan hüquqları ilə bağlı yerli, regional və beynəlxalq səviyyələrdə müxtəlif maarifləndirmə tədbirlərinin (forum, konfrans, seminar, təlim vebinar və s.) təşkilini davam etdirmək;
- Fundamental hüquqlardan biri olan sağlam ətraf mühitdə yaşamaq hüququ da daxil olmaqla insan hüquqlarının qorunması və inkişafı sahəsində bir-biri ilə həmrəylik və qarşılıqlı yardım prinsiplərindən çıxış etmək;
- Dünyada baş verən silahlı münaqişələrin yalnız beynəlxalq hüququn əsas prinsiplərinə, o cümlədən dövlətlərin ərazi bütövlüyü prinsipinə uyğun ədalətli sülhə nail olunması vasitəsilə həll edilməsi, insan hüquqlarının, xüsusən də onun mühüm tərkib hissəsi olan ekoloji hüquqların müdafiəsi sahəsində yeni norma və prinsiplərin formalaşması və təbliği prosesinə dəstək vermək;
- Ətraf mühitin radioaktiv, zəhərli, yoluxdurucu, partladıcı və digər zərərli maddələr, habelə minalarla çirkləndirilməsi, eləcə də ekosistemə ciddi zərər vuran digər bu kimi faktları davamlı şəkildə pisləmək və bununla bağlı beynəlxalq müstəvidə qətiyyətli mübarizə aparmaq;
- Qlobal iqlim dəyişikliyinin insan hüquqlarına neqativ təsirlərindən mümkün qədər yayınmaq istiqamətində yerli, regional və beynəlxalq səviyyədə həyata keçirilən tədbirləri dəstəkləmək.

Biz, bu Bəyannaməni qəbul edərək, Ombudsmanlar və MİHT-lərin iqlim dəyişikliyi kontekstində insan hüquqlarının təşviqi, müdafiəsi və təmini vəziyyətinin monitorinqi sahəsində xüsusi rolunu nəzərə alaraq, bu təsisatların ikitərəfli əsaslarla və ombudsmanların beynəlxalq təşkilatları çərçivəsində əməkdaşlığının gücləndirilməsinin, informasiya və təcrübə mübadiləsinin, müsbət iş təcrübəsinin yayılmasının zəruriliyini diqqətə çatdırırıq.

Forumun nəticələrindən məmnun olduğumuzu ifadə edərək ombudsmanlar və MİHT-lər arasında münasibətlərin daha da inkişaf etdirilməsi işinə öz mühüm töhfəsini verdiyini və yeni perspektivlər açdığını vurğulayır, bu Bəyannamənin müddəalarının yerli, regional və beynəlxalq səviyyədə həyata keçirilməsi üçün bütün tərəfdaşları birgə səy göstərməyə və əməkdaşlığa dəvət edirik.

Forumun yüksək səviyyədə təşkilinə görə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsmana), Azərbaycan dövlətinə və BMT-nin İnkişaf Proqramının Azərbaycandakı Nümayəndəliyinə minnətdarlığımızı bildiririk.

Bu Bəyannamə Bakı şəhərində 2024-ci il 02 oktyabr tarixində Azərbaycan və ingilis dillərində olmaqla 2 (iki) əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir.